**UOT 82.02**
https://doi.org/10.59849/2218-4783.2026.2.198

# XALQ YAZIÇISI HÜSEYN İBRAHİMOVUN NƏSR YARADICILIĞINDA KEÇİD DÖVRÜ PROBLEMLƏRİ

# PROBLEMS OF THE TRANSITIONAL PERIOD IN THE PROSE OF PEOPLE'S WRITER HUSEYN IBRAHIMOV

**Natavan İBRAHİMOVA***

**XÜLASƏ**

Azərbaycan Xalq yazıçısı Hüseyn İbrahimovun (1919-2008) müstəqillik dövrünün ilk illərində yazdığı hekayələr forma, məzmun, obraz və problem etibarilə keçid dövrü ədəbiyyatının ən nümunəvi əsərlərindən hesab edilə bilər. Yazıçının bu dövrdə ərsəyə gətirdiyi "Ata, qız və bostonlu Franklin", "Qumralın məktubları" kimi hekayələrində keçid dövrü Azərbaycanda və onun dalana qısılmış Naxçıvan bölgəsində yaşanan ictimai, mənəvi problem və yaşantıları, müharibənin və ağır iqtisadi çətinliklərin gətirdiyi bəlaları və onların fəsadlarını əks etdirmişdir. Hüseyn İbrahimovun yaradıcılığında xüsusilə keçid dövrünün sosial-ictimai problemləri mühüm yer tutur. Müstəqillik illərinin ilk mərhələsində cəmiyyətin yaşadığı mənəvi sarsıntılar, iqtisadi çətinliklər, ailə münasibətindən yaranan gərginliklər yazıçının hekayə və povestlərində real həyat materialları əsasında əksini tapmışdır. Onun qəhrəmanları çox zaman mürəkkəb həyat şəraitində mənəvi saflığı, insanlıq keyfiyyətlərini qorumağa çalışan sadə Azərbaycan insanlarıdır. Yazıçının əsərləri ideya aydınlığı və yüksək sənətkarlıq xüsusiyyətləri ilə seçilərək Azərbaycan nəsrində özünəməxsus yer tutur. Hüseyn İbrahimovun yaradıcılığı üzərində aparılan təhlillər göstərir ki, nasirin hekayələri ideya aydınlığı, mövzu aktuallığı ilə yanaşı, sənətkarlıq baxımından da dolğun və mükəmməldir.

**Açar sözlər:** *Hüseyn İbrahimov, keçid dövrü, hekayə, mənəvi dəyərlər.*

**ABSTRACT**

The stories written by Azerbaijani People's Writer Huseyn Ibrahimov (1919-2008) in the early years of the independence period may be considered among the most exemplary works of transitional literature in terms of form, content, characters, and themes. In his stories such as "Father, Daughter and Bostonian Franklin" and "Qumral's Letters," written during this period, he reflects the social and moral issues and experiences in Azerbaijan and its economically constrained Nakhchivan region, as well as the hardships caused by war and severe economic difficulties and their consequences. The social and public problems of the transitional period occupy a particularly significant place in Huseyn Ibrahimov's work. The moral turmoil, economic hardships, and tensions in family relations experienced by society in the early stages of independence are reflected in his stories and novellas based on real-life material. His characters are often ordinary Azerbaijani people striving to preserve moral purity and human qualities in complex life conditions. His works are distinguished by ideological clarity and high artistic craftsmanship, securing a special place in Azerbaijani prose. Analyses of Huseyn Ibrahimov's work show that his stories are rich not only in thematic relevance and clarity of idea but also in artistic perfection.

**Keywords:** *Huseyn İbrahimov, transitional period, story, moral values.*

## GİRİŞ

1990-cı illərdə xalqlar həbsxanası kimi səciyyələndirilən SSR adlı sosialist imperializminin süquta uğramasıyla başlanan xalq azadlıq hərəkatları və ictimai-iqtisadi dəyişikliklər özü ilə birgə müxtəlif – sosial, iqtisadi, siyasi, mənəvi, psixoloji, hərbi və digər çoxsaylı problemlər də gətirmiş oldu.

*AMEA Naxçıvan Bölməsi, e-mail: ibrahimovanatavan798@gmail.com
ORCİD: 0009-0000-8145-5717

Keçid dövrü kimi xarakterizə edilən bu dövrdə yaranan bədii ədəbiyyatın da, ələlxüsus bədii nəsrin də özünəməxsus yenidən formalaşma, inkişaf və yaradıcılıq problemləri ilə müşayiət edilirdi.

Bu dövrdə daha çox Xalq yazıçısı Hüseyn İbrahimov ərsəyə gətirdiyi nəsr nümunələri ilə dövrün ictimai həqiqətlərini, ictimai problemlərini, mənəvi-psixoloji yaşantılarını əks etdirdi. Məhz həmin mühüm dövrün bədii nəsrinin yaradıcılıq problemlərinin, habelə əks etdirilmiş ictimai həyatda yaşanan siyasi, iqtisadi böhran və mənəvi-psixoloji yaşantıların öyrənilməsi və yenidən dəyərləndirilməsi mövzunun aktuallığı və tədqiqatın əhəmiyyətini şərtləndirir. Çünki bədii ədəbiyyat dövrün ədəbi salnaməsi hesab edildiyindən burada məhz konkret dövrün yaşanılan məsələlərinin bütün xüsusiyyətlərini təhlilə cəlb etməklə dövrə yaxından və uzaqdan qiymət vermək mümkün olur. Tədqiqatın başlıca məqsədi keçid dövrü Naxçıvanda yaranan bədii nəsrin inkişaf və yaradıcılıq problemlərini öyrənmək, konkret faktları ictimai-tarixi həqiqətlərlə müqayisədə tədqiqata cəlb etməklə bədii həqiqətlə tarixi həqiqəti müəyyənləşdirmək və yenidən dəyərləndirmə aparmaqdır. Tədqiqat prosesində müxtəlif elmi tədqiqat metodlarından, o cümlədən tənqidi yanaşma, təsviretmə, sinxron və müqayisəli təhlil metod və üsullarından istifadə edilmişdir.

**HÜSEYN İBRAHİMOVUN KEÇİD DÖVRÜ HEKAYƏLƏRİ VƏ ƏDƏBİ-ESTETİK PROBLEMLƏRİ**

Naxçıvan ədəbi mühitinin görkəmli sənətkarlarından biri də Xalq yazıçısı Hüseyn İbrahimov olmuşdur. “Xalq yazıçısı Hüseyn İbrahimovun yaradıcılığı çoxşaxəli və zəngindir. Ulu Öndərimiz Heydər Əliyev Hüseyn İbrahimovun yaradıcılığına yüksək qiymət vermişdir. Ona Azərbaycanın “Şöhrət” ordeni (1994) və “Xalq yazıçısı” (1998) fəxri adı verilmişdir” [İbrahimov, 2005: 7]. Yazıçı yaradıcılığının bütün dövrlərində hekayə janrına müraciət etmişdir. Hüseyn İbrahimovun yaradıcılığı onun bədii nəsrinin ümumi səciyyəsi və təhlili ilə bağlı alimlərdən İsa Həbibbəyli, Yavuz Axundov, Hüseyn Həşimli, Ramiz Qasımov, Müzəffər Nəsirli eləcə də qələm dostlarından Asim Yadigar bəhs etmişlər. “Ədəbiyyatımızın mirvarisi adlandırılan hekayə janrında onun da öz mirvariləri vardır” [Həbibbəyli, 2019, 23 may]. Hekayələrinin mövzusu adi həyatdan götürülmüşdür. “Yazıçının realizmi müstəqillik dövründə yazdığı əsərlərdə yeni ədəbi keyfiyyətlər hesabına daha da zənginləşmişdir” [İbrahimov, 2015: 99]. Müəllifin müstəqillik illərində yazdığı hekayələrdən biri “Ata, qız və bostonlu Franklin” hekayəsidir. Keçid dövrünün yaratdığı maddi çətinliklər əsərdə özünü göstərir. Əsərin mərkəzində Kamran müəllim dayanır. O, ziyalı, ləyaqətli, mənəvi dəyərlərə bağlı obrazdır. Hekayənin mərkəzi problemi mənəviyyat və ləyaqət uğrunda mübarizə ilə maddi real problemlər arasında ziddiyyətlərdir. Burada yaşlı müəllimin həyat mübarizəsini, dünyanın enişli-yoxuşlu yollarından keçmiş, sevincli-kədərli ömür sürmüş, qocaman Azərbaycan müəlliminin surətini görürük. Müəllif Kamran müəllimin timsalında müəllim peşəsinin nə qədər ali və müqəddəs olduğunu cəmiyyət üçün daşıdığı mənəvi məsuliyyəti obrazlı ifadələrlə təqdim etmişdir. Kamran müəllim maaşı ilə ehtiyacı olan insanlar kömək edir, imkanları dairəsi daxilində hər kəsə əl tutmağa çalışır. Müəllif Kamran müəllimin dilindən “Müəllimi olmayan millət kar, kor lal olur”, “İndi mənim ailəm məktəb, övladlarım da şagirdlərimdir”, “Allahın mömin bəndələri biz və müəllimlərik”, “Elmi beşikdən qəbrə qədər öyrənmək gərəkdir” fikirlərini verir. Hekayənin adının bostonlu Franklin qoyulması onunla bağlıdır ki, Kamran müəllim şagirdi Nurtəkin bir gün ona 100 dollar pul verərək “imkansız” müəlliminə kömək etmək istəyir. Lakin müəllim onun təklifini özünə sığışdırmayıb geri çevirir. Hekayədə dərin psixoloji məqamlara rast gəlinir. Əsərdə romantizmin böyük nümayəndəsi Məhəmməd Hadinin də xatirəsi yad edilir. Onun keşməkeşli həyatı və nisgilli ömründən ürək ağrısı ilə bəhs olunur, şeirlərindən nümunələr gətirilir.

Ata, qız və bostonlu Franklin hekayəsində müəllif müharibəni pisləyir, onun ağır nəticələrinin cəmiyyət üçün ağır fəlakətlər, dərin yaralara səbəb olduğunu göstərir. Kamran müəllimin dili ilə düşmən tərəfindən tapdalanmış bir xalqın prezidentindən tutmuş adi vətəndaşına qədər heç kimin gülməyə, şənlənib-şadlanmağa haqqı yoxdur fikirləri ifadə olunur. Filologiya elmləri doktoru Ramiz Qasımov

yazır: “Hüseyn İbrahimovun yaradıcılığında ailə mövzusu, ailə problemi çox əhəmiyyətli yer tutur. Bəlkə də buna görə o, müharibənin dəhşətlərini göstərməli olan əsərlərində məhz ailələrin yaşadığı müsibətləri göstərməyi məqsədəuyğun bilib. Onun təbirincə, müharibəni udan da, uduzan da, insan deyil, ailələrdir. Bu mənada onun döyüşçüləri məhz ailə kontekstində öz yerini tapır, bir döyüşçünün döyüş, mübarizə, savaş yolu onun ailə həyatında əks etdirilir. Hər bir döyüşən əsgərin qəhrəmanlığı və rəşadətinin arxasında məhz geridə buraxdığı sevimli bir ailə məhəbbəti və onun həsrəti dayanır” [Qasımov, 2019, 03 iyul].

Baş qəhrəman əsərin sonunda bədbinləşir, bəzən ümidsizliyə də qapılır. Müəllif poeziya vasitəsilə əsas qəhrəmanın daxili aləmini daha təsirli şəkildə açır və onun dilindən bir bənd şeir verir:

Vəfa ömrün bəzəyidir, naxışıdır
Ceyran gözü bir afətin baxışıdır
Yaman xarab oldu bu fani dünya
Qalmaqdansa köçüb getmək yaxşıdır [İbrahimov, 1999: 53].

Əsərin sonunda Kamran müəllim dünyasını dəyişir. Hüseyn İbrahimov Nurtəkinin dilindən belə bir bədii sual qoyur. Kamran müəllimi kim öldürdü? Papam, ya mən? Yoxsa papamın dediyi kimi, bostonlu Franklin – yüz dollar! Hüseyn müəllimin şəxsiyyət ilə xarakteri arasında möhkəm bir bağlılıq olduğunu bilirik. Çox güman ki, Kamran müəllim Hüseyn İbrahimovun prototipidir. Kamran müəllim surəti ilə Hüseyn İbrahimov bu hekayədə öz surətini yaratmışdır.

Müstəqillik illərində yazdığı hekayələrin mövzu dairəsi genişdir. Hadisələr həm Azərbaycanda, həm də Azərbaycan hüdudlarından kənarda cərəyan edir. Hüseyn İbrahimovun müstəqillik illərində yazdığı hekayələrdən biri də “Qumralın məktubları”dır. Hekayədəki hadisələr şəhərdə yaşayan sadə bir ailədə baş verir. Əsərin mərkəzində Şərif həkimlə, Nəcibə xanım dayanır. Onların ailə-məişət problemləri əsərdə geniş şəkildə işıqlandırılır. Nəcibənin uşaq yaşlarından ərköyün böyüdülməsi, ailə qurduqdan sonra xarakterinin dəyişməsi, sağlam ailələr üçün fəlakət olan qısqanclıq hissinin onun bütün düşüncəsinə hakim kəsilməsi göstərilir. Şərif həkimin evinə hər gün eşq, məhəbbət dolu məktublarının gəlməsi, bu məktublardan sonra evdə böyük dava-dalaşların düşməsi, Şərifin ürək xəstəliklərinə aid dissertasiya üzərində işləməsi, və sonra isə elmi dərəcə alması kimi hadisələri görürük. Şərif həkimin hətta yorularaq bir övladı olmasına baxmayaraq Nəcibədən ayrılmaq istəyi də əsərdə açıq şəkildə göstərilir. Lakin əsərin sonu gözlənilməz sonluq bitir. Bu da ədəbiyyatımıza xas olan bir əlamətdir ki, daha çox novella janrını xatırladır. Məhz bu əsərdə də biz bunun şahidi oluruq. Hətta Nəcibə Şərifi yeni dövrün “müasir Məcnun”u adlandırır. Əsərin sonunda müəyyən olunur ki, məktubları Şərif həkimə məhz bacısı Qumral yazır. Elə hekayənin adı da buradan yaranır – “Qumralın məktubları” adlanır. Əsərdə müstəqillik dövrünün sosial mühitində formalaşan ailə-məişət münasibətləri, insan psixologiyasında baş verən dəyişikliklər və mənəvi sarsıntılar bədii şəkildə qələmə alınmışdır.

## NƏTİCƏ

Hüseyn İbrahimovun müstəqillik illərində yazdığı hekayələri Azərbaycan ədəbiyyatının sanballı hekayələri silsiləsinə daxildir. Onun hekayələri sayca az olsa da, keyfiyyətcə yeni dövrün bədii nəsrinin forma və məzmunca inkişafı və formalaşması baxımından təkanverici qüvvəyə malikdir. Bu hekayələrdə keçid dövrünün ictimai böhranı və böhranın insanların mənəvi-psixoloji aləmlərinə vurduğu zərbələr, açdığı yaralar və s. əks etdirilmişdir. Hekayələrdə təsvir edilən bədii hadisələr konkret dövrün xarakterinə uyğun hadisələrdən ibarət olmaqla müəllimlərin düşdüyü ağır iqtisadi-mənəvi böhran, ictimai ümidsizlik və laqeydlik, sosial biganəlik, milli dəyərlərin aşınması və bu fonda milli düşüncəyə yol açan avropasayağı təsirlər və s. özünün problematik yerini tapmışdır.

**ƏDƏBİYYAT**

İbrahimov H. (1999). *Ata, qız və bostonlu Franklin*. Yurd.

İbrahimov H. (2005). *Əsrin onda biri.* Avrasiya Press.

İbrahimov S. (2015). *Xalq yazıçısı Hüseyn İbrahimov*. Əcəmi.

Həbibbəyli, İ. (2019, 23 may). Nəcibliyin keşiyində. *Ədəbiyyat*.

Qasımov, R. (2019, 03 iyul). Vətənə məhəbbət, xalqa sədaqət duyğusu ilə. *525-ci qəzet*.

*(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 22.05.2026**
**Son variant 03.06.2026**